

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 86 (24.223)

*16 may 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Brüsseldə beşinci görüş – Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesində uğurlu addım

### *Prezident İlham Əliyev Belçika Krallığına işgüzar səfər edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 13-də Belçika Krallığına işgüzar səfərə gəlib.

Dövlətimizin başçısı Brüsseldə Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç ilə görüşüb.

Söhbət zamanı Azərbaycan Prezidentinin Maroş Şefçoviç ilə bundan əvvəl keçirdiyi görüşləri məmnunluqla xatırlandı. Cənub Qaz Dəhlizinin uğurla icra olunması işinə Maroş Şefçoviçin verdiyi töhfə qeyd edildi və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri kimi onun fəal rolu vurğulandı.

Maroş Şefçoviç Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsi və səmərəli fəaliyyəti ilə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Avropa Komissiyasının



Prezidenti Ursula Fon der Lyayenin ötən ilin iyulunda ölkəmizə səfəri və bu səfər çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumunun əhəmiyyəti qeyd edildi. Azərbaycan qazının Avropa İttifaqı məkanına ixracının artırılması prosesinin uğurla icra olunduğu və bu xüsusda aprel ayında Sofiyada imzalanan Anlaşma Memorandumunun əhəmiyyəti vurğulandı. Azərbaycan qazının Avropa məkanında daha geniş coğrafiyanı əhatə etməsinin önəmi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bərpaolunan enerji istehsalı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi, bu sahənin böyük perspektivlərə malik olduğu bildirildi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında strateji tərəfdaşlığın uğurla davam etdiyi vurğulandı.

* * *



Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə dövlətimizin başçısı Brüsselə səfərə dəvətə görə Avropa İttifaqı Şurasının Prezidentinə təşəkkürünü bildirdi.

Hər iki tərəf Azərbaycan və Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin Brüssel formatının bərpası ilə bağlı məmnunluqlarını ifadə etdilər. Prezident İlham Əliyev Şarl Mişelə bu istiqamətdə göstərdiyi səylərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı son aylar ərzində Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı baş verən hadisələr, Vaşinqton danışıqları, Azərbaycan-Ermənistan sərhədində vəziyyət, habelə bu gün Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçiriləcək üçtərəfli görüşün gündəliyi müzakirə olundu.

* * *

Mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.

Şarl Mişel açıqlamasında deyib:

– Axşamınız xeyir, xanımlar və cənablar. Bu gün biz böyük məmnuniyyətlə Prezident Əliyevi və baş nazir Paşinyanı Brüsseldə təşkil olunmuş beşinci görüşdə qəbul etdik. Bizim fikir mübadiləmiz səmimi, açıq və nəticəyönümlü idi. Əsas diqqət Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə yönəldilmişdi. Liderlər Cənubi Qafqazda sülhün bərqərar olunması üçün birgə istəklərini ifadə etdilər. Mən müvafiq səyləri təqdir edirəm. Biz gündəliyimizdə olan bütün məsələləri birlikdə nəzərdən keçirdik. Bu yaxınlarda sülh sazişi ilə bağlı ABŞ-da keçirilmiş müsbət danışıqlardan sonra bu impuls saxlanılaraq Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır.

Sərhəd məsələlərində biz irəliləyişi və sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımları müzakirə etdik. Həmin kontekstdə liderlər sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəldilər. Liderlər 1991-ci ilin “Alma-Ata Bəyannaməsi”nə və Ermənistanın 29,800 kvadratkilometr və Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər. Sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.

Bağlantılar məsələsində tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə aydın irəliləyişə nail olublar. Bu mövzuda, xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər.

Humanitar məsələlərə gəldikdə, qarşıdakı həftələr ərzində saxlanılan daha çox şəxslər azad ediləcəkdir. Öz tərəfimdən onu vurğuladım ki, sadəcə, yolunu azan və qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad olunmalarına dair qarşılıqlı anlaşmanın təmin olunması davam etdirilməlidir.

Biz, həmçinin itkin düşmüş şəxslərin taleyi ilə bağlı və minaların təmizlənməsi işinin sürətləndirilməsinin vacibliyinə dair müzakirələr apardıq.

Biz keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi məsələsi ilə əlaqədar müzakirələri davam etdirdik. Mən Azərbaycanı beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq çərçivəsində həmin əhalinin hüquq və təhlükəsizliyinin təmin olunması ilə bağlı müsbət gündəliyin formalaşdırılmasına dəvət etdim. Mən, həmçinin Bakının bu əhali ilə şəffaf və konstruktiv dialoq aparması zərurəti məsələsini qaldırdım. İnanıram ki, düşmənçilik ritorikasından çəkinmək, qarşılıqlı məqbul həll yollarına nail olmaq üçün xoş niyyət və liderliyin nümayiş etdirilməsi vacibdir.



Avropa İttifaqının gizli gündəliyi yoxdur. Bizim yeganə məqsədimiz Azərbaycana və Ermənistana əhatəli və ədalətli sülhə nail olmaqda kömək etməkdir. Biz onların birgə səylərinə dəstək verməyə hazırıq.

Biz Brüssel görüşlərini mümkün qədər tez-tez keçirmək barədə razılığa gəldik. Liderlər növbəti dəfə Brüsseldə iyul ayında görüşəcəklər. Artıq bəyan etdiyimiz kimi, biz yenidən yaxın gələcəkdə Fransa Prezidenti Makron və Almaniya Kansleri Şolts ilə Kişineuda keçiriləcək 2-ci “Avropa siyasi birliyi” Zirvə Toplantısı çərçivəsində görüşəcəyik.

Mən, həmçinin liderləri oktyabrda Qranadada təşkil ediləcək 3-cü “Avropa siyasi birliyi” Zirvə Toplantısı çərçivəsində daha bir belə görüşə dəvət etmək niyyətindəyəm.

* * *

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatıb.

## Azərbaycan Prezidenti İlham Əliyev Ərəb Parlamentinin prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Ərəb Parlamentinin prezidenti Adel bin Əbdülrəhman əl-Asumini qəbul edib.

Dövlətimizin başçısı Adel bin Əbdülrəhman əl-Asuminin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev Ulu Öndərin Azərbaycanın ərəb ölkələri ilə münasibətlərinin inkişafına çox böyük töhfə verdiyini vurğulayaraq, bu gün də bu siyasətin davam etdirildiyini bildirdi, özünün ərəb ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərinin və qarşılıqlı səfərlərin bunun əyani sübutu olduğunu dedi. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini vurğulayan dövlətimizin başçısı ərəb ölkələri ilə münasibətlərin uğurla və hərtərəfli inkişaf etdiyini dedi, ötən il Ərəb Liqasının Zirvə Toplantısına dəvət olunmasını əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi.



Dövlətimizin başçısı ərəb ölkələrinin həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də Zəfərimizdən sonra Azərbaycanla həmrəy olmasını yüksək qiymətləndirdi və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də çoxsaylı qətnamələr qəbul olunmasının önəmini qeyd etdi.

Azərbaycan Prezidenti 30 illik işğal dövründə ermənilərin xalqımıza qarşı mədəni soyqırımı törətdiklərini bildirərək, həmin ərazilərdə onların İslam maddi mədəniyyət irsini məhv etdiklərini, 67 məsciddən 65-ni dağıtdıqlarını diqqətə çatdırdı. Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işləri haqqında məlumat verdi.

Prezident İlham Əliyev Ərəb Parlamentinin prezidentinin ölkəmizə səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq dedi: "Sizin kimi böyük dünya lideri ilə görüşməkdən və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən bu tədbirlərdə iştirak etməkdən şərəf hissi duyuruq".

Qonaq Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin və Bəhreyn Krallığının vəliəhdi, Nazirlər Şurasının sədri Salman bin Həməd Al Xəlifənin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bəhreynin Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi. Eyni zamanda dövlətimizin başçısı dost və qardaş ərəb ölkələrinin rəhbərlərinə də öz ehtiramını çatdırdı.

Ərəb Parlamentinin Azərbaycana qardaş ölkə kimi münasibət bəslədiyini bildirən qonaq Fələstin problemi ilə bağlı göstərilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısının Ulu Öndərin layiqli davamçısı olduğunu məmnunluqla qeyd edən qonaq Azərbaycan Prezidentinin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin qazandığı nailiyyətləri vurğuladı. O, Azərbaycanın İslam dəyərlərinin müdrikliyi əsasında inkişaf edən və bu dəyərlərin hökm sürdüyü bir ölkə olduğunu dedi.

Ölkəmizə ikinci dəfə səfər etdiyini bildirən Adel bin Əbdülrəhman əl-Asumi daha əvvəl Azərbaycana Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı konfransında iştirak etmək üçün gəldiyini diqqətə çatdırdı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini təqdir etdiklərini bildirdi, ölkəmizin Hərəkatın təsisatlanması, beynəlxalq səviyyədə nüfuzunun artması istiqamətində çox ardıcıl siyasət həyata keçirdiyini məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti ölkəmizin İslam həmrəyliyini hər zaman dəstəklədiyini bildirdi. Bu xüsusda bir müddət əvvəl Fələstində Azərbaycanın diplomatik nümayəndəliyinin açılmasını, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərini və orada ölkəmiz tərəfindən məktəbin inşasını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsini xatırladı, ölkəmizin Avropada islamofobiya meyillərinin artmasından narahatlığını ifadə etdi, bu cür meyilləri qınadığını dedi və bir müddət əvvəl Azərbaycanda islamofobiya ilə əlaqədar çox əhəmiyyətli beynəlxalq konfransın keçirildiyini vurğulayaraq gələcəkdə bu xüsusda birgə platformanın yaradılmasının önəmini diqqətə çatdırdı.

Görüşdə Azərbaycanla İslam və ərəb dövlətləri arasında iqtisadiyyat, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin vacibliyi diqqətə çatdırıldı, əməkdaşlığın birgə səylərlə daha da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi. Bu hədiyyənin ancaq ərəb dövlətlərinin liderlərinə verildiyini vurğulayan Adel bin Əbdülrəhman əl-Asumi dedi ki, müstəsna hal kimi bu hədiyyəni Azərbaycan Prezidentinə təqdim etməkdən şərəf hissi duyur.

## Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Ali Məclisi Senatının sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib.



Prezident İlham Əliyev Tənzilə Narbayevanın rəhbərlik etdiyi nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakını yüksək qiymətləndirərək Ulu Öndərin xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Özbəkistana səfəri zamanı Prezident Şavkat Mirziyoyevlə birlikdə Ulu Öndərin abidəsinin və onun adını daşıyan parkın açılmasını da bu ehtiramın təzahürü olduğunu dedi. Ümummilli Liderin dost və qardaş Özbəkistanla və Özbəkistan xalqı ilə əlaqələrə böyük diqqət yetirdiyini xatırladan Azərbaycan Prezidenti bu siyasətin bu gün də bütün istiqamətlərdə davam etdiyini məmnunluqla vurğuladı. Prezident İlham Əliyev Özbəkistanın dövlət başçısı ilə dostluq münasibətlərinin ikitərəfli əlaqələrimizin genişlənməsi işinə xidmət etdiyini bildirdi və bu işdə qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Füzulidə olarkən Özbəkistan Prezidenti tərəfindən özbək xalqı adından hədiyyə olaraq burada inşa edilən məktəb binasında aparılan tikinti işləri ilə tanış olduğunu məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Tənzilə Narbayevanın ölkəmizə səfərinin də əlaqələrimizin inkişafı baxımından önəmini qeyd etdi.

Tənzilə Narbayeva, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Özbəkistan Prezidenti strateji tərəfdaşlığa söykənən Azərbaycanla dostluq əlaqələrini yüksək qiymətləndirir və Azərbaycan Prezidentinə qardaşlıq münasibətləri bəsləyir.

Azərbaycan Prezidenti salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda uğurlu islahatların aparıldığını dedi, bu yaxınlarda keçirilmiş referendum münasibətilə təbriklərini çatdırdı.

Öz növbəsində, Tənzilə Narbayeva hər iki dövlət başçısının rəhbərliyi ilə Azərbaycan və Özbəkistanda bütün sahələrdə uğurların əldə edildiyini vurğuladı.

Özbəkistan Ali Məclisi Senatının sədri Ümummilli Liderin 100 illiyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirakından məmnunluq hissi keçirdiyini bildirərək Ulu Öndərin ölkələrimiz arasında dostluq münasibətlərinin qurulmasında xüsusi rolunu qeyd etdi. Vurğuladı ki, Özbəkistanda Ulu Öndərin xatirəsi dərin hörmətlə yad olunur və dahi şəxsiyyətin anadan olmasının 100 illiyi münasibətilə tədbirlər davam edir.

Qonaq bildirdi ki, torpaqlarımızı işğaldan azad etməklə Azərbaycan Prezidenti ata vəsiyyətini yerinə yetirib və Azərbaycan xalqının qəhrəmanı olaraq tarixi missiya həyata keçirib.

O, eyni zamanda Qoşulmama Hərəkatına Azərbaycanın uğurlu sədrliyini xüsusilə qeyd etdi və ölkəmizin rəhbərliyi ilə Hərəkatın nüfuzunun artdığını, onun təsisatlanması istiqamətində mühüm işlərin görüldüyünü vurğuladı.

Tənzilə Narbayeva mədəniyyət və humanitar sahələrdə əməkdaşlığımızın xüsusi əhəmiyyət kəsb etdiyini deyərək, bu xüsusda Azərbaycan Prezidentinin Özbəkistanın mədəniyyət xadimlərini, Özbəkistan Prezidentinin isə Azərbaycanın mədəniyyət xadimlərini təltif etmələrinin önəminə toxundu, bunun mədəniyyət işçilərinə böyük ruh və həvəs verdiyini diqqətə çatdırdı.

Qonaq Özbəkistandan Azərbaycana səfər edən nümayəndə heyətlərinə daim göstərilən diqqətə görə də təşəkkürünü bildirdi.

Söhbət zamanı xalqlarımız arasında ortaq tarixi köklərin, mədəniyyət və dil bağlılığının olması xüsusilə qeyd edildi.

Görüşdə qeyd edildi ki, maşınqayırma, kənd təsərrüfatı, tekstil sənayesi, energetika, investisiya qoyuluşu və digər sahələr üzrə konkret layihələr və birgə Fond var. Hər iki prezident tərəfindən bu layihələr davamlı şəkildə diqqət mərkəzində saxlanılır.

Ölkələrimizin beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığı vurğulandı, gənclər sahəsində əməkdaşlığın, Azərbaycan və Özbəkistan gənclərini bir araya gətirən forumların keçirilməsinin önəmi bildirildi.

## Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan parlamentinin sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və parlamentlərarası əlaqələr sahəsində səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Şalva Papuaşvilinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakının əlaqələrimizin genişlənməsi baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı özünün Gürcüstana səfərini, Gürcüstanın Baş nazirinin isə Azərbaycana səfərini məmnunluqla xatırladı və bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar çox ətraflı müzakirələrin aparıldığını qeyd etdi.

Prezident İlham Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycanın və Gürcüstanın üzləşdiyi problemlərə toxundu, birgə layihələrin icrasının əhəmiyyətini vurğuladı. Bu xüsusda ilk layihə kimi Bakı-Supsa neft boru kəmərinin reallaşdırıldığını diqqətə çatdırdı və bundan sonra digər layihələrin də uğurla həyata keçirildiyini dedi.

Bu gün ölkələrimizin bu layihələrin icrası sayəsində enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadıqları vurğulandı. Həmçinin Orta Dəhliz vasitəsilə nəqliyyat imkanlarının artırılmasında Azərbaycanla Gürcüstanın əməkdaşlığının mühüm əhəmiyyət kəsb etdiyi qeyd olundu.

Şalva Papuaşvili Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak etməkdən şərəf hissi keçirdiklərini bildirdi. Qonaq Ümummilli Liderin Azərbaycanın hərtərəfli inkişafındakı rolunu vurğulayaraq, eyni zamanda, məhz onun rəhbərliyi ilə strateji layihələrin həyata keçirildiyini qeyd etdi. Gürcüstan parlamentinin sədri vurğuladı ki, vaxtilə Ulu Öndərin atdığı müdrik addımlar Azərbaycanın gələcəyi üçün böyük önəm daşıyır. O, Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulması işində şəxsən Azərbaycan Prezidentinin roluna görə minnətdarlığını bildirdi.

Qonaq ölkələrimizin həyata keçirdiyi birgə layihələrin əhəmiyyətinə toxundu. Bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Qara dənizin dibi ilə elektrik xəttinin çəkilişi layihəsini, həmçinin Azərbaycanla olan tərəfdaşlarla birlikdə Qara dənizin dibi ilə sualtı fiber-optik kabel xətti kimi irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etdi.

Şalva Papuaşvili Azərbaycanın və xalqımızın Gürcüstan üçün çətin dövrlərdə ölkəsinin ərazi bütövlüyünü dəstəklədiyini yüksək qiymətləndirdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev Misir parlamentinin Nümayəndələr Palatasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebalini qəbul edib.

Prezident İlham Əliyev Misir parlamenti Nümayəndələr Palatasının sədrinə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi. Ulu Öndərin Azərbaycanın dövlət quruculuğunda müstəsna rol oynamış bir şəxsiyyət olduğunu vurğulayan dövlətimizin başçısı, eyni zamanda Ümummilli Liderin Azərbaycan-Misir əlaqələrinin inkişafında böyük xidmətlərini qeyd etdi.

Prezident İlham Əliyev Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərini məmnunluqla xatırladı, bu səfərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini dedi, səfər zamanı Azərbaycanla Misir arasında müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı, enerji, kənd təsərrüfatı, səhiyyə və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd etdi.

Dövlətimizin başçısı salamlarını Misirin Prezidentinə çatdırmağı xahiş etdi.

Azərbaycanda özlərini ölkələrindəki kimi hiss etdiklərini deyən qonaq Azərbaycanla Misir arasında çox möhkəm qardaşlıq münasibətlərinin mövcud olduğunu vurğuladı. “Azərbaycan bizə dost ölkədir və dostluğumuzun böyük tarixi var”, – deyən Hanaf Ali Əl Gebali qeyd etdi ki, Misirdə Ulu Öndərin xatirəsi daim böyük ehtiramla anılır. O vurğuladı ki, ölkə üçün çox çətin vaxtlarda məhz Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bütün sınaqlardan uğurla çıxaraq inkişaf yoluna qədəm qoyub və Prezident İlham Əliyev bu siyasəti müvəffəqiyyətlə davam etdirir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı, bu xüsusda dövlətimizin başçısının Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu fəaliyyətinə görə təbriklərini çatdırdı, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada rolunun və nüfuzunun daha da artdığını qeyd etdi.

Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

**AZƏRTAC**

# “Çınqıllı” suyunun istehsalı bərpa olunub









Muxtar respublikaya yerli və xarici investorların marağı günbəgün artır. Yeni cəlb edilən investisiyalar hesabına fəaliyyəti dayanan müəssisələr bərpa edilir, yeni istehsal sahələri fəaliyyətə başlayır.

Şahbuz rayonunun Keçili kəndindəki “Çınqıllı” su istehsalı müəssisəsi də bu tədbirlər çərçivəsində fəaliyyətini daha müasir formada davam etdirəcək.

Açılış tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat verilib ki, mənbəyini kəndin səfalı dağlarından götürən saf bulaq suyu müəssisədə qatqısız və heç bir filtrizasiya prosesindən keçmədən təbii şəkildə qablaşdırılır.

Qabaqcıl ölkələrin istehsalı olan avadanlıqların quraşdırıldığı müəssisənin istehsal gücü gündəlik 42 tondur. Burada 4 istehsal xəttində 8 çeşiddə, 2 növdə – şüşə və plastik qablarda təbii bulaq suyu istehsal olunur. Yüksək keyfiyyətlə qablaşdırılan məhsullar muxtar respublikanın satış və xidmət obyektlərinə, eləcə də ölkə bazarlarına çıxarılır. Müəssisədə Keçili kəndindən 10 sakin işlə təmin olunub. İlin sonuna işçi sayı 30 nəfərə çatdırılacaq.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev kənd yaşayış məntəqələrində bu cür istehsal müəssisələrinin fəaliyyətə başlamasını Naxçıvanda sosial-iqtisadi inkişafa mühüm töhfə kimi dəyərləndirib.









Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova vurğulayıb ki, yaxın günlərdə Bakı şəhərində kənd təsərrüfatı və qida sənayesi üzrə beynəlxalq sərgidə ilk dəfə “Orqanik Naxçıvan” brendi də nümayiş etdiriləcək. Naxçıvanın “Çınqıllı” suyu da həmin sərgidə öz yerini alacaq.

“Himal Holdinq”in prezidenti Hacı Ələsgərov qarşıdakı aylarda holdinqin Şərurda böyük tekstil fabriki açacağını bildirib və tikinti sektoruna da investisiya qoyduğunu vurğulayıb. Bu layihələr çərçivəsində Naxçıvanda yüzlərlə yeni iş yerləri yaradılacaq.

**“Şərq qapısı”**

# Naxçıvan Dövlət Milli Dram Teatrında “Cibimizdəki dəlilik” tamaşası təqdim olunub







Mayın 13-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində türkiyəli yazıçı Mehmet Ümit Görgülünün psixoloji dram janrında olan “Cibimizdəki dəlilik” əsəri əsasında səhnələşdirilən tamaşa təqdim edilib.

Tamaşanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Birinci Naxçıvan Kitab Sərgisində iştirak edən ziyalılar, Qazaxıstan Respublikasının incəsənət ustaları və ictimaiyyət nümayəndələri izləyiblər. Azərbaycan teatr səhnəsində ilk dəfə səhnələşdirilən “Cibimizdəki dəlilik” tamaşasında insanın insana yadlaşması, özündən, öz dəyərlərindən uzaqlaşması acı bir həqiqət kimi öz səhnə həllini tapır. İnsanlığın sevgidən, sədaqətdən, bütün müsbət insani keyfiyyətlərdən yoxsullaşdığının fərqində olan insanlar ya dəli olur, ya da zamanın axarına uyub yaşayırlar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli uğurlu səhnə həllinə görə və Naxçıvan teatrının 140 illiyi münasibətilə kollektivi təbrik edib.

**“Şərq qapısı”**

## Naxçıvana hərbi prokuror təyin edilib

Naxçıvana hərbi prokuror təyin edilib.

Bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən məlumat verilib.

Baş prokuror Kamran Əliyevin əmrinə əsasən Baş Prokurorluğun İstintaq İdarəsinin, xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi Aqil Axundova Naxçıvan hərbi prokurorunun vəzifəsinin icrası həvalə olunub.

## Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsinə təyinat olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Sərəncamı ilə İbrahimov Anar Vaqif oğlu Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsinə təyin edilib.

İbrahimov Anar Vaqif oğlu 2006-cı ildən Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin İqtisadi təhlil və uçotun təşkili şöbəsində işləyib, müxtəlif illərdə bu şöbədə dövlət vergi müfəttişi, baş dövlət vergi müfəttişi və şöbə rəisi vəzifələrində çalışıb. 2023-cü ildən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin İqtisadi təhlil, bəyannamələrə və büdcə proqnozunun icrasına nəzarət idarəsinin rəisi vəzifəsində işləyib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin digər Sərəncamı ilə Fərrux Məmmədağa oğlu Əkbərov Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsindən azad edilib.

## Naxçıvanda aqrar innovasiya festivalı keçiriləcək

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi bu il Naxçıvanda aqrar innovasiya festivalı keçirəcək. Bunu nazirliyin sektor müdiri Toğrul Qafarbəyli bildirib.

“Nazirliyin Aqrar İnnovasiyalar Mərkəzi daima regionlarda festivallar keçirir. Bu festivallar aqrar innovasiyaların təbliği və təşviqi, fermerlər və sahibkarlar arasında işgüzar əlaqələrin genişləndirilməsi istiqamətindədir. Festivallarda yerli şirkətlər innovativ suvarma texnikaları, müxtəlif təyinatlı çoxfunksiyalı dronlar, zərərvericilərə qarşı yeni mübarizə vasitələri, kənd təsərrüfatı üçün alternativ enerji mənbələri, həmçinin yeni təşəkkül tapmış yüksək məhsuldarlıq göstəricilərinə malik yem bitkiləri kimi innovativ məhsul və texnologiyalar təqdim edir”, – deyə o qeyd edib.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda Beynəlxalq Ailə Günü qeyd edilib





*Naxçıvanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş 15 may – Beynəlxalq Ailə Günü münasibətilə “Azərbaycan ailə siyasətinin təminatçısı Ulu Öndər Heydər Əliyev” mövzusunda tədbir keçirilib.*

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sonra Ümummilli Liderimizin zəngin irsini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikası üzrə səlahiyyətli nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev bildirib ki, Azərbaycan xalqı hər zaman ailə dəyərlərini, ailə ləyaqətini hər şeydən uca tutub və bu bizim milli adət-ənənəmizə çevrilib. Qeyd edib ki, ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına həmişə qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirdi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi əsasında ötən əsrin 90-cı illərində ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikası mühüm beynəlxalq Konvensiyalara qoşulub və ölkəmizdə bir sıra müvafiq qanunlar qəbul edilib. Pənah Mehdiyev tədbir iştirakçılarını Beynəlxalq Ailə Günü münasibətilə təbrik edib.




Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, hazırda Naxçıvan Muxtar Respublikasında 99 min 52 ailə yaşayır. Naxçıvan Muxtar Respublikasında ailələrə dəstək dövlətin diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, ötən dövrdə muxtar respublikada müharibə veteranlarına, şəhid ailələri və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş vətəndaşlara, eləcə də hərbi qulluqçuların, alim və fəaliyyət göstərdiyi sahədə uğurları ilə seçilən şəxslərin ailələrinə mənzillər verilib. Həmçinin 1320 ailə özünüməşğulluğa cəlb edilib. Hazırda muxtar respublikada 1377 ailə təsərrüfatı fəaliyyət göstərir.

Sağlam ailənin sağlam nəsil, sağlam millət demək olduğunu xatırladan Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Nicat Babayev ölkəmizdə ailənin inkişafı sahəsində müsbət dinamikanın mövcudluğu, ailə institutunun daha da möhkəmləndirilməsi və muxtar respublikada özünüməşğulluq proqramının uğurla həyata keçirilməsi sahəsində görülən işlərdən bəhs edib.

Uzunömürlü ailənin üzvü Rüstəm Ələkbərov, şəhid ailəsinin üzvü Gülay Novruzlu və hərbçi ailəsinin üzvü Ramilə Kazımova cəmiyyətimizin layiqli sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Tədbirdə şəhid, qazi və digər nümunəvi ailələrin üzvlərinə hədiyyələr təqdim olunub.

Sonra “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda 10-cu muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinin qaliblər mükafatlandırılıb.

Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs qrupunun, Naxçıvan şəhər 5 və 8 nömrəli körpələr evi-uşaq bağçalarının balaca fidanlarının hazırladıqları kompozisiya alqışlarla qarşılanıb.

Sonda müsabiqə qaliblərinin əl işlərindən ibarət sərgiyə baxış olub.

**✍ Gülcamal TAHİROVA**

# “Ulu Öndər Heydər Əliyevin dövlət idarəçilik konsepsiyası” mövzusunda tədbir

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə İqtisadiyyat və idarəetmə fakültəsində Ulu Öndər Heydər Əliyevin dövlət idarəçilik konsepsiyasına həsr olunan tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fakültənin dekanı Əşrəf Ələkbərov tədbiri giriş sözü ilə açaraq 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar keçirilən tədbirlərin müstəsna əhəmiyyətindən bəhs edib, Ulu Öndərin Azərbaycan təhsilinə verdiyi töhfələrdən danışıb.



Sonra Ədliyyə Nazirliyinin əməkdaşları Səttar Zamanov, Ələkbər Hüseynov, universitetin kafedra müdiri Flora Kərimova və tələbələr çıxış ediblər.

Çıxışlarda dahi şəxsiyyət Heydər Əliyevin dövlət idarəçilik ideyaları, onun zəngin idarəçilik məktəbi barədə məlumat verilib. Ulu Öndərin dövlət idarəçiliyində səmərəliliyin artırılmasına xidmət edən ixtisaslı və peşəkar kadrların hazırlanması istiqamətində gördüyü işlərdən bəhs edilib. Məruzəçilər əbədiyaşar liderin həyat yoluna nəzər salıb, onun bütün fəaliyyət dövründə xalqına bağlılığı, milli dövlətçiliyə sadiqliyini nümayiş etdirən faktlardan danışıblar.

Tədbirin sonunda Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yoluna həsr olunan videoçarxa baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Növbə Naxçıvanla bağlı bu məsələnin həllindədir

### Şarl Mişel: Naxçıvana və əks istiqamətdə dəmir yolunun bərpasına dair Azərbaycanın və Ermənistanın mövqeləri yaxınlaşıb



*Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 13-14-də Belçika Krallığında işgüzar səfərdə olub. Bakı-İrəvan üzərində vasitəçilik missiyasını davam etdirən Qərb növbəti dəfə Əliyev-Paşinyan görüşünə şahidlik etdi. Bu görüşdə tərəflər arasında hansısa konkret nəticənin olacağı gözlənilmirdi, ancaq rəsmi Bakının növbəti dəfə öz dəyişməz mövqeyini ortaya qoyması və tərəflərin hansı gedişləri edəcəyi baxımından bu qarşılaşma əhəmiyyətli idi. Azərbaycan tərəfinin gündəliyi əvvəldən aydın idi: ərazi bütövlüyünün tanınması, sülh sazişinin hazırlanması üzrə razılaşdırılan məsələlərin yenidən gündəmə gətirilməsi. Hansı ki müzakirə olunacaq bu məsələlərdə sərhədlərin delmitasiyası, anklavlarda olan kəndlərin Azərbaycanın yurisdiksiyasına qaytarılması, erməni əhalisi ilə təmasların qurulmasında separatçılar faktoru və digərləri həllini gözləyən məsələlərdir.*

Ermənistan tərəfindən isə separatçıları növbəti dəfə "tərəfə" çevirmək cəhdləri, orduların sərhəd xəttindən geri çəkilməsinin əhəmiyyətini irəli sürmək ("güzgü prinsipi"), anklav məsələlərindən maksimum yayınmaq və bunu sonrakı mərhələlərə (xüsusilə Fransanın iştirak edəcəyi görüşlərdə) saxlamaq ehtimalı gündəmdə idi. Hətta erməni mediasına bu görüşü şərh edən politoloq Karen İgidyan bildirmişdi ki, Ermənistan və Azərbaycan liderlərinin Brüsseldə gözlənilən görüşünə Paşinyanın deyil, Əliyevin bəyanatları prizmasından baxmaq lazımdır. İgidyanın sözlərinə görə, Prezident Əliyev nəyin bahasına olursa-olsun, Azərbaycan tərəfinin uğurlarını qeyd edəcək saziş imzalamağa çalışır. Sitat: "Bu sənəd Azərbaycanın malik olduğu və əldə edə biləcəyini hüquqi cəhətdən təsbit edəcək, ona görə də Bakını heç nə ilə məhdudlaşdırmayacaq". Ümumilikdə isə erməni mediasında yayılan məlumatlardan da məlum olur ki, erməni cəmiyyəti əvvəlcədən bu görüşdən əhəmiyyətli nə isə gözləmirdi.

Görüşün nəticələri ilə bağlı ilk açıqlama isə təşkilatçının özündən gəldi. Belə ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında ilk olaraq tərəflərin Almatı bəyannaməsinə sadiq qaldıqlarını bildirdi. Sonrakı açıqlamasında isə Şarl Mişel tərəflər arasında nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə aydın irəliləyişə nail olunduğunu diqqətə çatdırdı: "Bu mövzuda, xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər".

Qeyd edək ki, regionda nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası Azərbaycan Prezidenti cənab İlham Əliyevin qarşı tərəflə müzakirələrində daim aktual olub. Ölkəmizin qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə imzaladıqları 10 noyabr bəyanatının 9-cu bəndində də açıq mətnlə qeyd olunur ki, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, ötən müddət ərzində Ermənistan tərəfindən bu istiqamətdə nəinki heç bir addım atılmayıb, hətta dəhlizin açılmaması üçün vaxtaşırı olaraq dövriyyəyə əsassız informasiyalar buraxılıb. Ermənistandan fərqli olaraq isə Azərbaycan hər zaman ən yüksək səviyyələrdə Zəngəzur dəhlizinin açılmasını diqqət mərkəzində saxlayıb, bu sahədə mühüm işlər görüb, ölkə başçısı tərəfindən indiyədək çox sayda açıqlamalar verilib. Hətta dövlət başçısı ötən il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində bu layihənin qəti olaraq reallaşacağını bir daha söyləyib: ***"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də".***

Azərbaycan Prezidentinin bu fikri layihənin reallaşdırılmasında onun nə qədər qətiyyətli olduğunu ortaya qoyur. Azərbaycan indiyədək dəfələrlə, həm də ən yüksək tribunalardan bu dəhlizin əhəmiyyətinin nəinki Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası arasındakı bağlantının bərpası, ümumilikdə, Şərq və Qərb arasında nəqliyyat əlaqələrinin təhlükəsiz, rahat və rentabelli olacağını bildirib. Ona görə ki, Azərbaycan artıq neçə illərdir ki, hər iki qitə arasında özünü etibarlı tərəfdaş kimi sübut edib. Digər tərəfdən ölkəmizin özündə müasir yükdaşıma infrastrukturunun (yeni dəniz-ticarət limanı, müasir avtomobil və dəmir yolları kimi) qurulması Şərq-Qərb ölkələri arasında yüklərin rahat, təhlükəsiz və vaxtında çatdırılmasına yeni imkanlar yaradır. Zəngəzur dəhlizinin açılması isə, ilk növbədə, dənizlərə çıxışı olmayan Ermənistan üçün böyük nəfəslik rolunu oynayacaq. Amma erməni təfəkkürünə görə adıçəkilən dəhliz bu ölkəni "blokadaya salacaq", mövcud iqtisadi-siyasi durumunu daha da çətinləşdirəcək. Halbuki Azərbaycan dəfələrlə Ermənistanın bu layihədə iştirakının ona iqtisadi mənfəət gətirəcəyini bildirib. Görünən odur ki, erməni cəmiyyətində Zəngəzur dəhlizinin açılmasının nəyə xidmət edəcəyini ya anlamırlar, ya da anlamaq istəmirlər. Məsələn, erməni türkoloq Varujan Geqamyan görüşdən sonra Şarl Mişelin açıqlamasının Ermənistan üçün xoşagəlməz açıqlamalar olduğunu bildirir: "Biz seçkini izləyəndə Nikol Zəngəzur sözü verdi… Nə demək olar, bəyanatın bəndlərində xronoloji ardıcıllığa tam əməl olunur. Qarabağın təslim olmasından sonra növbə dərhal Zəngəzura çatacaq. Zəngəzur dəhlizi proqramının həyata keçirilməsi gələcəyə həmişəkindən daha aydın oldu".

Sözsüz ki, erməni "siyasətçilərinin" real vəziyyəti necə qiymətləndirmələri bizim üçün əhəmiyyətli deyil. Əslində, istəyərdik ki, yaranmış reallıqları düzgün qiymətləndirsinlər. Ancaq nə etməli? Əsas odur ki, Zəngəzur dəhlizinin əhəmiyyətini Vaşinqton görüşlərinin davamı kimi dəyərləndirilən Brüsseldə də yaxşı anlayırlar. Və Qərb üçün əsas məqsəd gələcəyə hesablanmış iqtisadi maraqlardır. Bu maraqları isə Azərbaycanın beynəlxalq hüquqa söykənən şərtləri təmin edir. Həm də hamının xeyrinə!

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Təhsil Tələbə Krediti Fondunun əməkdaşları ali təhsil ocaqlarının tələbələri ilə görüşüb



Naxçıvan Dövlət Universitetində təşkil edilən görüşdə çıxış edən ali təhsil ocağının Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev siyasi fəaliyyəti boyu təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirib, bu sahədə kompleks islahatlar aparılıb. Ölkə başçısı tərəfindən təhsil sistemində yenidənqurmanın həyata keçirilməsi, əlverişli şəraitin yaradılması, təhsilin inkişafı istiqamətində Dövlət proqramları və sərəncamların imzalanması təhsilimizin daha da inkişaf etdirilməsinə xidmət göstərir.

Bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 iyun tarixli 1367 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondu" yaradılması ali təhsilə və aztəminatlı təbəqədən olan gənclərə dövlət qayğısının bariz nümunəsidir.

Görüşdə çıxış edən universitetin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlı bildirib ki, ali təhsil ocağında 2021-2022-ci akademik tədris ilindən TTKF ilə bağlı komissiyanın tərkibi müəyyənləşdirilərək fəaliyyətə başlayıb və tələbələrlə görüşlər təşkil edilərək onların qeydiyyatına şərait yaradılıb. Belə ki, ötən müddət ərzində, ümumilikdə, 364 tələbə kreditlə bağlı müraciət edib ki, bunun 101 nəfəri sosial, 181 nəfəri isə standart olmaqla, 282 tələbənin krediti rəsmiləşdirilib, 9 tələbənin kreditinin rəsmiləşdirilməsi üçün müraciət edilib.

"Naxçıvan" Universitetinin tələbələri ilə keçirilən görüşdə universitetin rektoru, dosent Anar Kazımov və digər rəhbər şəxslərlə universitetdə tələbələr üçün yaradılmış imkanlar, gələcəkdə nəzərdə tutulmuş layihələr, eləcə də təhsil tələbə kreditinin tələbələr üçün faydaları barədə fikir mübadiləsi aparılıb.

Tədbirdə Tədris və tərbiyə işləri üzrə prorektor Nurlana Əliyeva çıxış edərək qonaqları salamlayıb və təhsil tələbə kreditinin faydalarından danışıb.

Maarifləndirmə məqsədilə keçirilən görüşlərdə Təhsil Tələbə Krediti Fondunun (TTKF) İdarə Heyətinin sədr müavini Bəhruz Əzimov, Təhsil Tələbə Krediti Fondunun şöbə müdiri Tehranağa Abdullayev fondun yaranma tarixi, məqsədi haqqında geniş məlumat veriblər. Bildirilib ki, fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir.



Qeyd edilib ki, təhsil tələbə krediti olduqca mütərəqqi, gənclərin təhsilə əlçatanlılığının təmin olunmasına xidmət edən dövlət sənədidir.

Vurğulanıb ki, təhsil tələbə kreditinin növləri, tələbə krediti almaq üçün verilən tələblər, kreditdən istifadə hüququ, kreditin verilməsinə dair tələblər və tətbiq edilən güzəştlər müəyyən edilib. Təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur. Krediti almaq üçün tələbə girov, zamin, borcalan və sair heç bir öhdəliklə yüklənmir.

Diqqətə çatdırılıb ki, kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınmaqla yüksək nəticə göstərilməsi ilkin şərtdir. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verilir. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ da verilir.

Hər iki görüşün sonunda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb, səsləndirilən təkliflər dinlənilərək qeydə alınıb.

**Xəbərlər şöbəsi**

## İmtahanlar keçirilib

Dövlət İmtahan Mərkəzi mayın 14-də əvvəlki illərin məzunları üçün 9 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı, aprel ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində mərkəzə müraciət edilmiş cari ilin IX sinif şagirdləri üçün buraxılış imtahanı, eksternat qaydada IX sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı, buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində mərkəzə müraciət edilmiş əvvəlki illərin IX sinif məzunları üçün buraxılış imtahanı keçirib.

Respublikanın 15 şəhər və rayonunda təşkil olunan imtahanlarda 14328 nəfər iştirak edib. Ümumilikdə, imtahanların idarə olunmasına 56 ümumi imtahan rəhbəri, 179 imtahan rəhbəri, 1340 nəzarətçi-müəllim, 157 buraxılış rejimi əməkdaşı və 56 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı 3 binada təşkil olunub. 928 şagirdin iştirak etdiyi imtahanın idarə olunmasına 12 rəhbər, 94 nəzarətçi cəlb edilib. İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

***

Həmin gün Bakı və Naxçıvan şəhərlərində rezidenturaya qəbul imtahanının birinci mərhələsi keçirilib. İmtahanda 1302 namizəd iştirak edib. Onlardan 1002 nəfər Azərbaycan, 300-ü isə rus bölməsi üzrə imtahan verib. Ərizə verənlərin 566-nı oğlan, 736-nı isə qızlar təşkil edib. İmtahan saat $11^{00}$-da başlayıb və 2 saat 30 dəqiqə davam edib. Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin binasında keçirilən imtahanda 79 nəfər iştirak edib.

İmtahan nəticələri yaxın həftələrdə elan olunacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Qazaxıstanın tanınmış musiqi qrupunun konserti maraqla qarşılanıb



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində ötən günlərdə Qazaxıstan Respublikasının mədəniyyət və idman nümayəndələri Naxçıvana səfər ediblər. Naxçıvan şəhərindəki "Saat meydanı" turistik istirahət mərkəzində Qazaxıstan Respublikasının dünyaca məşhur "Alashuly" musiqi qrupu rəngarəng konsert proqramı ilə çıxış edib. Musiqi qrupunun türkçülüyü, Turan birliyini ifadə edən ifaları onları dinləməyə gələn hər kəsin zövqüncə olub.

Qazaxıstanlı dünya çempionu, rekordsmen güləşçi Timur Spataevin güc şousu izləyicilərin marağına səbəb olub. "Alashuly" musiqi qrupunun üzvləri Türk dünyasında sevilən ifalarını Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ərməğan edib və xatirə fotoları çəkdiriblər.

**Xəbərlər şöbəsi**

# Birinci Naxçıvan Kitab Sərgisi – qədim diyarda yeni mütaliə ənənələri formalaşır




*Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər davam edir. Zəngin ənənələrə malik Naxçıvan diyarı bu dəfə yeni bir mədəni tədbirə ev sahibliyi etdi. Belə ki, bir çox dahilərin göz açdığı bu ulu diyarda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi, "Naxçıvan" Universiteti və "Hədəf" Şirkətlər Qrupunun təşkilatçılığı ilə ANAİB I Naxçıvan Kitab Sərgisi keçirilib.*

Qonaqları qarşılayan universitetin rektoru Anar Kazımov kitabın və mütaliənin önəmindən danışıb, bu prosesə hər zaman dəstək verməyə hazır olduqlarını bildirib.

Daha sonra ANAİB-in sədri Şəmil Sadiq bütün qonaqlara, eləcə də universitetin kollektivinə kitaba verdikləri dəstək üçün təşəkkür edib. Görüşdə Qulu Məhərrəmli, Əhməd Qaşamoğlu, Varis Yolçuyev, Rəşad Məcid, Solmaz Amanova kimi qonaqlar və naşirlər iştirak ediblər.

Görüş tanışlıq və birgə layihələrin perspektivlərinin müzakirəsi formatında davam edib.

Sərgi iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucaldılmış abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin adını daşıyan muzeylə tanış olublar. "Naxçıvan" Universitetinin kampusunda reallaşdırılan sərgidə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Tanınmış ədiblərin iştirak



etdiyi 2 günlük kitab sərgisində minlərlə kitab endirimli qiymətlərlə oxucuların ixtiyarına verilib. Sərgi çərçivəsində "Naxçıvan" Universitetində məşhur yazıçılar Varis Yolçuyev, Zahid Xəlilin, Elxan Elatlının və şair Rüstəm Behrudinin imza mərasimləri keçirilib. Eyni zamanda Elxan Elatlı yeni romanı olan "Belçika ovçarka"sını oxucularına təqdim edib. Ssenari müəllifi Arif Əliyev, prodüsseri Tahir Tahiroviç olan "Əsgərlər unudulanda ölürlər" filminin təqdimatı sərgi iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərimizin qorunaraq bir miras kimi gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşır, mütaliəni isə mənəvi zənginlik adlandırırdı. Ulu Öndər kitablarla dost olmağı elmlərə yiyələnməyin açarı hesab edirdi. Elə bu mədəni irsin davamı kimi ölkəmizdə mütəmadi kitab sərgiləri təşkil olunur, gənc nəslin elmi biliklərə, kamilliyə doğru irəliləməsində ziyalılar və kitabsevərlərlə silsilə görüşlər keçirilir. Bu görüşlərdən biri də mayın 13-ü və 14-ü ilk dəfə təşkil olunan I Naxçıvan Kitab Sərgisi idi.

İyirmi beş nəşriyyatdan minlərlə kitabın sərgiləndiyi bu tədbirdə həm Bakı şəhərindən gələn ziyalı qonaqlar, həm də muxtar respublikamızdan xeyli sayda kitabsevərlər iştirak edirdi. Biz də onlardan bir neçəsi ilə həmsöhbət olduq.

İlk olaraq ***Azərbaycan Nəşriyyatlar Assosiasiyası İctimai Birliyinin sədri Şəmil Sadiq*** ilə söhbət etdik, sərgi haqqında fikirlərini öyrəndik. Bu elin, bu torpağın yetirməsi olduğu üçün özünə mənəvi borc bilən Şəmil Sadiq, uzun illərdir ki, arzusunda olduqları bu sərgini Naxçıvanda keçirmək istədiyini bildirdi: – İkigünlük səfərimiz zamanı, təqribən, yüz nəfərlik heyətlə iştirak etdik. Bu səfərimiz zamanı gedişat tam olaraq ürəyimizcə oldu. Təqribən, 25 nəşriyyatın, 10 mindən çox kitabın, yazıçı, oxucu görüşlərinin, təqdimat mərasimlərinin, qiraət və nağıl saatlarının keçirilməsi, həmçinin elmi seminarların olması bu işin daha konseptual və möhtəşəm olmasını göstərir. Adətən, keçirilən sərgilər yarmarka xarakterli olur. Amma biz bunu Naxçıvanda sərgi, festival şəklində keçirib gözəl bir hadisəni yaşamış olduq. Bu həm də Naxçıvan tarixində bir ilkdir. Bu qədər nəşriyyatın kitablarının bir arada sərgilənməsi çox önəmlidir. Qonaqların da Naxçıvanın tarixi abidələrini ziyarət etmələri, Naxçıvanda dövlət səviyyəsində diqqət və səmimi münasibət göstərilməsi hər birimizi ürəkdən sevindirir. Həmçinin Naxçıvan Dövlət Milli Dram Teatrında "Cibimizdəki dəlilik" adlı tamaşaya da baxıb əsl zövq aldıq. Bütün bunlara görə bir daha öz minnətdarlığımızı bildiririk.

Növbəti həmsöhbətimiz ***Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı*** oldu. O belə bir əhəmiyyətli tədbirin Naxçıvanda təşkil edilməsindən şad olduğunu bildirdi. Elçin müəllim üçün xoş məqamlardan biri də oxucuların ailə üzvləri ilə birgə sərgiyə gəlib kitablarla yaxından tanış olmaları idi. Bildirdi ki, kitabsevərlərlə yaxından təmasda olmaq, burada sərgilənən kitablar haqqında məlumatlar əldə etmək özü bir mədəni istirahətdir. Elçin müəllimin arzusu bu oldu ki, Naxçıvanda bu cür kitab sərgilərinin təşkili davamlı olsun.



Kitab sərgisində ***Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid*** də iştirak edirdi. Naxçıvana vaxt tapdıqca gəlməyi unutmayan Rəşad müəllim sərginin burada keçirilməsinin həm də bu qədim diyara ilk dəfə səfər edənlər üçün fürsət olduğunu dedi, gözəl bir ənənənin əsasının qoyulduğunu bildirdi: – Naxçıvan torpağı hər dövrdə Azərbaycana önəmli şəxsiyyətlər, mütəfəkkirlər bəxş edib. O cümlədən Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyəti dünyaya bəxş edib. Bu mənada, Naxçıvanda kitab oxumaq ənənəsi böyükdür və bunu davam etdirmək lazımdır. Gənclər arasında mütaliəyə, kitaba marağın oyadılmasında bu cür tədbirlərin təşkili lazımlı və vacib addımlardandır. Və düşünürəm ki, nəşriyyatların da marağı və əsas hədəfi elə budur. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşümüzdə də Naxçıvanın gələcək inkişafı barədə mütaliə və onun təbliğinin zəruriliyindən danışdıq. Elə bilirəm ki, gələcək illərdə bu bayram daha çox insanı əhatə edəcək. Ümumilikdə isə bu, Naxçıvan üçün xoş bir hadisədir, arzu edirəm ki unudulmaz bir tədbir kimi həmişə hafizələrdə qalsın.

***Azərbaycan Respublikasının Əməkdar jurnalisti, tədqiqatçı-alim, professor Qulu Məhərrəmli*** söhbətə Naxçıvanla bağlı fikirlərini bölüşməklə başladı: – Naxçıvan ən qədim zamanlardan Azərbaycanın mədəniyyətin və tarixin tərəqqi ünvanı olmuşdur. Mən Naxçıvana çox gəlmişəm, ilk səfərim ötən əsrin 80-ci illərinin ortalarında olub. O illərdə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da vəziyyət çox təlatümlü idi. İşğal olunmaq, erməni qəsbkarları tərəfindən təzyiqlərə, təqiblərə məruz qalmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxta naxçıvanlılar bütün varlıqları ilə mübarizə aparırdı, Sədərəkdə düşmən təxribatlarının qarşısını almaq üçün cidd-cəhdlə çalışırdılar. Bu gün artıq Naxçıvan çox dəyişib və inkişaf edib. 44 günlük Vətən müharibəsindən sonra Zəngəzur dəhlizinin açılması məsələsinin gündəmə gətirilməsi, Naxçıvanla ölkəmizin quru yolunun təmin olunması bu məmləkətin, necə deyərlər, şöhrətini daha da artıracaq. Zəngəzur dəhlizinin açılması tarixi reallıqdır, zamanın tələbidir. Ölkə başçısı cənab İlham Əliyevin də vurğuladığı kimi, Zəngəzur dəhlizi regional sülh və əməkdaşlıq mühitini gücləndirəcək nəqliyyat layihəsidir və açılması mütləqdir.

Qulu müəllim kitab sərgilərinin əhəmiyyətindən də danışdı: – Düşünürəm ki, bu sərgi qədim diyarın insanları üçün çox əhəmiyyətli addımdır. Öz müşahidəmə əsaslanaraq deyirəm ki, iki gün ərzində xeyli sayda alıcı gəlib bura və böyük bir hissəsini də gənclər təşkil edir. Bu, çox sevindirici bir haldır. Gənclərimizin müasir dövrdə mütaliəyə maraq göstərməsi onların istər nümunəvi ziyalı kimi, istərsə də əsl vətəndaş olaraq formalaşması baxımından əhəmiyyətlidir. Ümid edirəm ki, bu cür layihələr davamlı olar...

Belə möhtəşəm bir sərgiyə ev sahibliyi edən ***"Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov*** dedi: – Azərbaycanı hər zaman elm, sənət ocağı kimi görmək istəyən Ulu Öndər Heydər Əliyev irsinin bu gün ölkədə uğurla davam etdirildiyinin şahidiyik. Sevindirici haldır ki, sərginin ilk dəfə keçirilməsinə baxmayaraq, insan axınını müşahidə etdik və "Naxçıvan" Universitetinin fərqli auditoriyalarında müxtəlif görkəmli qələm sahibləri ilə görüşlər təşkil olundu. Hesab edirik ki, sərgiyə gələn muxtar respublika sakinləri, eləcə də qonaqlarımız öz istəklərinə və zövqlərinə uyğun kitablar əldə edib, sevimli şair və yazıçılarımızla ünsiyyət qurmaq imkanları oldu, onlar buradan əllərində kitablar, üzlərində sevinc hissi ilə ayrılırdılar.

***"Altun-kitab" nəşriyyatının direktoru Rafiq İsmayılov*** isə Naxçıvana ikinci dəfədir gəldiyini, bu qədim diyarın tarixi və turizm üçün əhəmiyyətli olan gəzməli-görməli yerlərinin onda xoş ovqat yaratdığını bildirdi. Naxçıvanda keçirilən kitab sərgisi haqqında isə müsahibim buna çoxdan arzuladığını bildirdi. Qeyd etdi ki, naxçıvanlıların qonaqlara və sərgiyə münasibəti bizi çox sevindirdi. Sərginin təşkilinin kitabsevərlər üçün böyük töhfə olduğunu bildirdi.

Sərgidə ***yazıçı, şair Zahid Xəlil*** ilə söhbətimiz oxucuları ilə görüşü və imza saatında oldu. Belə kitab sərgisinin keçirilməsindən böyük fərəh hissi duyduğunu bildirdi. Və onunla görüşməyə gələn naxçıvanlı oxucuların da görüşdən məmnunluqla ayrılmaları onu daha çox sevindirdi. Tədbirə yüksək səviyyədə ev sahibliyinə görə universitet rəhbərliyinə təşəkkür edən Zahid müəllim bu ənənənin davamlı olmasını arzuladı.



Vaxtilə ən az oxucusunun Naxçıvanda olmasını düşündüyünü, lakin fikrində yanıldığını qeyd edən növbəti müsahibim isə ***Azərbaycan Respublikasının Əməkdar jurnalisti, yazıçı Varis Yolçuyev*** oldu. Varis müəllim, indiyə kimi dünyanın bir çox ölkəsinə səfər etsə də, ulular yetişdirən qədim diyarda ilk dəfə olduğunu, bunun üçün özünü xoşbəxt hiss etdiyini söylədi. Yazıçı Möminə xatın kimi dünya əhəmiyyətli bir abidəni gəlib gözləri ilə görməyə vəsilə olduqları üçün tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi. Yazıçı yaxın zamanlarda Azərbaycan-Türkiyə birgə istehsalı olacaq Atabəylərlə bağlı çoxseriyalı televiziya filmi çəkiləcəyini və həmin filmin ssenari qrupunun rəhbəri kimi Möminə xatın türbəsini yaxından görməyin onun yaradıcılığına böyük bir stimul verdiyini söylədi. Qeyd etdi ki, daha tez-tez gəlməlidir Naxçıvana. Həm ssenarisi üçün, həm də burada düşündüyündən də çox oxucusu olduğu üçün. Kitab sərgisində gördüyü mənzərədən məmnunluq hissi keçirən dəyərli yazıçımız satış şəbəkələri ilə əlaqə saxlamaq istəyini də dilə gətirdi. Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru vəzifəsinə təyin olunan Varis Yolçuyev, özünün həm də vəzifə borcu kimi bölgələrdə kitab təbliğatı işlərini aparmaq və bu sahədə, təbii ki, Naxçıvanla da bağlı planlarının olduğunu bildirdi.

"Naxçıvan" Universitetinin kampusunda kitab sərgisi ilə yanaşı, həm də müxtəlif görüşlər, imza saatları təşkil olunmuşdu. Gənc nəslin sevimlisi olan, şeir və bədii qiraəti insanlara daha da sevdirməyi bacaran ***Xəzər Süleymanlı*** da dəvət olunmuş qonaqlar arasında idi. Sərgiyə gələn kitabsevərlər üçün səsləndirdiyi bir-birindən gözəl şeirləri ilə hər kəsin könlündə yer almağı bacaran bədii qiraətçi doğma Naxçıvanımız, eləcə də kitab sərgisi haqqında təəssüratlarının çox gözəl olduğunu vurğuladı. O, təşkilatçılara təşəkkürünü bildirərək belə görüşlərin tez-tez təşkil olunacağına ümid etdiyini söylədi.

İllər sonra doğma məmləkəti Naxçıvana ayaq basan dəyərli ***şairimiz Rüstəm Behrudi*** söhbətə alman imperatoru Bismarkın ifadələri ilə başladı: Düşünürəm ki uzun illərdir, Naxçıvanda bu cür kitab sərgiləri keçirilməyib. Bu təşəbbüs Naxçıvan ziyalılarının, naxçıvanlı oxucuların həyatında böyük bir hadisədir. Cahil insanların dövlət və cəmiyyət üçün faydası ola bilməz. Az sayda adamın kitaba yönəlməsini belə görsək, bu bizim üçün çox sevindirici bir hadisədir. Rüstəm Behrudi illər sonra ata yurdu Naxçıvanda oxucuları ilə görüşünə şərait yaradıldığı üçün təşkilatçılara öz dərin minnətdarlığını bildirdi.

Qonaqlar arasında daha bir müsahibimiz ***"Parlaq imzalar nəşriyyatı"nın direktoru Nurman Tariq***dir. Nurman müəllim dedi: – ANAİB fəaliyyətə başlayan bir gündən ilk hədəfləri



bölgələrə kitab daşımaq olub. Çünki paytaxt Bakıda kitab sərgiləri və bu kimi tədbirlər mütəmadi olaraq təşkil edilir. Lakin bölgələrdə kitab sərgiləri, kitablarla ünsiyyət bir az minimal səviyyədə olur. Hədəfimiz də elə əsasını bölgələrə üz tutub bu kimi problemi ortadan qaldırmaqdır. Naxçıvan beşinci bölgədir ki, kitablarla gedib sərginin təşkilinə müvəffəq oluruq. Gördüyümüz iş çətin və məsuliyyətli işdir, komanda işidir. Amma çox məmnunuq ki, bu iş nəticə verir və nə yaxşı ki, bu səfərimiz Naxçıvana oldu. İlk dəfədir, naxçıvanlı oxucularla görüşə gəlmişik və necə qarşılanacağımızı bilmirdik. Lakin burada çox fərqli bir mənzərə ilə qarşılaşdıq. İstər Naxçıvanda olan tarixi abidələrlə tanışlığımız, insanların qonaqlarımıza olan xoş münasibəti, kitabsevərlərin böyük marağı bizim xoş təəssüratla ayrılmağımıza səbəb olacaq. Ümid edirəm ki, növbəti sərgilərimiz daha da yeni oxucu axınına səbəb olacaq.

İlk dəfə Naxçıvanda təşkil olunmuş kitab sərgidə naxçıvanlı yazarlar da yer almışdı. ***Şair-yazıçı Elxan Məmmədov***dan da təəssüratlarını bölüşməsini xahiş etdik. O vurğuladı ki, həqiqətən də, Naxçıvanda bu cür sərginin keçirilməsi hər kəsin ürəyincədir. Çünki naxçıvanlı müəlliflər Azərbaycanın digər yazıçıları da yaxından tanımaq imkanı əldə edirlər. Müsahibim qeyd etdi ki, festivallar şəhəri olan Naxçıvanda çox xoş olar ki, bundan sonra kitab festivalı da keçirilə.

Yerli yazarlarımızdan ***Təranə Arifqızı*** da qeyd etdi ki, belə bir sərginin açılması və yazarların, şairlərin, eləcə də kitabsevərlərin sərgidə yaxından iştirak eləməsi bizi ürəkdən sevindirir.

Bir sözlə, I Naxçıvan Kitab Sərgisində iştirak edən hər kəs bu möhtəşəm tədbirin davamlı olmasını arzulayırdı. Ümid edirik ki, belə də olacaq və doğma diyarımız bundan sonra da belə maraqlı tədbirlərlə iştirakçılarını sevindirəcək.

✍ **Aidə İBRAHİMOVA**

## *İtmişdir*

Novruzov Həbib Məzahir oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Həmzəyev Ramin Qulu oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Gülməmmədova Günay İbrahim qızının adına olan 3450 inventar nömrəli texniki pasport və 0071778 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

2020-ci il 31 yanvar tarixdə verilmiş 27/00013 qeydiyyat nömrəli lisenziya itdiyidən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 334